YENİ TƏFƏKKÜR
Yüksəlişə doğru yol!
7 avqust / 2020

# Halallıq onun həyat kredosudur

## Nüfuzlu şəxsiyyət Ələşrəf Niftiyevin 75 illiyinə

***Ağsaqqal görkəmində bir bulaq saflığı müşahidə etdiyimiz Ələşrəf Niftiyev mərdmərdanə, üzü ağ, müdrik ucalıqların yorulmaz yolçusu kimi ömrünün 75-ci baharının da əlini sıxdı... Arxada qoyduğu 75 il onun həyat duyğularının bar-bəhrəsi kimi işıq saçır.***

Xalqımızın görkəmli, dəyərli, sədaqətli və yüksək mənəviyyat sahibi olan şəxsiyyətləri barədə yazı yazmağı həmişə özümüzə borc bilmişik. Yüksək həyat eşqi olan Ələşrəf Niftiyev də belə insanlardan biridir. O, el içində özünə dərin hörmət və rəğbət qazanıb, həyatda bir çox çətinliklərlə üzləşib və bütün maneələrə mərd-mərdanə sinə gərib; balacadan böyüyə hər kəs onun hörmətini saxlayır, adı gələn yerdə çöhrələrə xoş təbəssüm qonur. Bəlli ki, o, hamımızın sevimlisidir, yetərincə tanınıb, uzun müddət bir sıra sahələrdə dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edib. Biz dəfələrlə onun səmərəli fəaliyyətini özümüzə bələdçi etmişik və ömür salnaməsinin işıqlı səhifələrini aramla vərəqləmişik.

Həyat insanların birgəliyindən bu qədər gözəl görünür. Doğru deyiblər, həyatı insanlar gözəlləşdirir. Onların bir-birinə qarşı dostluğu, diqqət və qayğısı yaşam tərzlərinə, maarifpərvərlik və vətənpərvərlik duyğularına da sirayət edir.

Həm də duyğulu, təfəkkürlü insanlar digərlərindən daha yaxşı düşünür və hərəkət edirlər. Qüdrətli və dəyərli insanlar daha yaxşı yazır, danışır gözəl davranışı ilə seçilir. 75 yaşın fövqünə ucalmış Ələşrəf Niftiyev humanist, maarifpərvər insan kimi sözün əsl mənasında bir örnək həyatın yorulmaz yolçusudur. Sözə, qələmə hörmət qoyanlardandır; ona görə Allah yanında üzü ağdır...

Əlbəttə, tanınmaq üçün insan öz adının şərəfini həmişə uca tutmalıdır. Bu mənada, Ə.Niftiyev eloba sevgisi qazanıb, insan adının şərəfi ilə özünə bir abidə ucaldıb, xalqımızın başını uca edib, soy-kökə hörmət hissi yaşadıb, doğulduğu elə-obaya şan-şöhrət gətirib. O, şərəfli, ləyaqətli, vicdanlı insandır. Onun ömür yolu yetişən nəsillərə bir görk, bir nümunədir.

Ölkəmizdə pak və əqidəli insanlar çox yetişib. Səmimi deyək ki, özünün əsl ziyalı örnəkləri ilə çoxları üçün sevimli insana çevrilmiş dəyərli insan, qeyrətli vətəndaş Ələşrəf Niftiyevin də xarakter göstəriciləri bu ictimai zəminlərə tam uyğun gəlir. İstər əvvəlki illərdə, istərsə də bu gün o, ancaq əsl insanlıq nümayiş etdirir. Onun əməli işlərində müasirlik günün reallığı kimi diqqət çəkir. Bir sözlə, o, bu gün də cəmiyyət və dövlət məsələlərinə ciddi önəm verir.

Əlbəttə, insan şəxsiyyəti özünü bütün labüd hallarda aktiv göstərir. Lakin cəmiyyət məsələlərində şəxsiyyət fəallığının daha geniş aspektləri var. Bu, həm də ictimai əhatənin genişlənməsinə zəmin yaradır. Məhz bu mənada Ələşrəf Niftiyevin cəmiyyət üçün etdikləri alqışa layiqdir.




Az-az insan var ki, el içində hərtərəfli hörmət qazanır. Az-az ziyalı var ki, onu canlı görmək, gendən də olsa, şəxsiyyət adının fövqünə baxış cilvələmək istəyirsən. Səmimi deyək ki, Ələşrəf Niftiyevin də insan fəhmi bu ucalıqda bərq vurur. O, yaxşı əməlləri ilə ad qoyub, hər kəsin sevimlisinə çevrilib. Geniş ictimaiyyətin dəyər verdiyi bu şəxsin sifət cizgilərində böyük tərbiyə, etik-əxlaq normaları məna tapır. Əslində, bu dediklərimiz Ələşrəf müəllimin həyat yolunun çox cüzi bir hissəsidir. Onun ömür salnaməsində yüz illərin möhtəşəm fəvvarələri çırpınmaqdadır. O, vaxtın, zamanın ucada tutduğu isandır. Xeyirxahdır. Zəhmətə bağlılığı könül verdiyi həyata sevgisində açıq-aşkar görünür. Ətrafındakıların sevincini, kədərini, arzu və istəklərini özününküləşdirməyi bacarır. Bununla da ucalıq qazanır.

**Ələşrəf müəllim haqqında dost sözləri də maraq kəsb edir. Təqdim edək:** *"Dostumuz və qələm yoldaşımız Ələşrəf! Dünyada dərdsiz, problemsiz insan yoxdur. Dərdi, yaradanımız dərd çəkənə, qismət edir. Qəhrəmanımız da ömür yolunda xeyli sınaqlardan qalib çıxıb, yəni ağıllı, həssas, qayğıkeş, qeyrətli, əməksevər, istedadlı, qəlbi sevgi və eşqlə, səxavətlə, iman və inamla dolu insan kimi qismətini qazanıb. Bir də sənin axı maşallah, qoca dünya kimi biləyindən qocalmağın heç hiss olunmur, yazırsan, deyirsən, fəal görünürsən. Mənim şeirimə istinadən hey misal kimi çəkirsən ki, bu dünya nərdivandı, yuxarı mehribandı, aşağı nə yamandı, yüksəyə qalxanda yaxşıdı, enəndə pisdir. Ələşrəf, sən insanların qəlbində əməllərinlə həmişə ucadasan, yüksəkdəsən və vüqarlı gərəkli görünürsən. Yerində olan kişisən. Səninlə o zamanda Masallıdan olan komsomol qurultayındakı nümayəndələrlə görüşümüz zamanı orada çıxışını dinləyərək necə idin, yenə də elə görünürsən. Göz dəyməsin, sənə 75 yaş vermək olmaz, xeyli cavan görünürsən. Belə qalın. Mən əyalətlərdə sizin kimi intellektual səviyyəli, savadlı, müasir dünyagörüşlü istedadlı insanlarla görüşümdən məmnun qalıram. Dostum Musa qağa sənin bütün yeni kitablarını, məqalə və yazılarını mənə çatdırır. Çox razı qalıram və qələmini yüksək dəyərləndirirəm", - bu sətirlər şəxsən Xalq şairimiz, poeziyamızın patriaxlarından biri - Nəriman Həsənzadəyə məxsusdur (M.Quluzadə).*

Bu ifadələrdə əslində, Ələşrəf müəllimin həyat-tale və insan obrazı canlanıb. Biz bu obrazı öz idealımız hesab etməkdən çəkinmirik...

75 illik yubileyi ərəfəsində Ələşrəf Niftiyevin «Demədiklərim və yazmadıqlarımla görüşənədək» kitabı işıq üzü görüb. Kitab AYB-nin üzvü Qardaş Əlişoğlunun redaktorluğu ilə 2020-ci ildə «Elm və Təhsil» mətbəəsində nəşr olunub. Kitabda müəllifin bir-birindən maraqlı məqalələri yer alıb və burada hər tarix bir insan ömrünün obrazlı anı kimi diqqət çəkir, Baş Obrazın (müəllifin) həyat yolu geniş xarakterizə olunur.

Ümumilikdə, kitab bugünkü və gələcək nəsillər üçün tutarlı bir vasitədir və kitabı diqqətlə oxuyandan sonra bir daha əmin oluruq ki, halallıq Ələşrəf Niftiyevin həyat kredosudur.

**Hikmət Məlikzadə**